**"GL" Açıq Səhmdar Cəmiyyəti**

*Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan*

*50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

# BAZA EMİSSİYA PROSPEKTİ

**Bakı - 2026**

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

## BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Baza emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "GL" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Baza Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir fakt gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.

**"GL" ASC-nin Direktoru:**

**Əhmədov Camal Kamal oğlu____________**

**Tarix: 19.02.2026**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti "GL" Azerbaijan Republic Open-Joint Stock Company

**"GL" ASC-nin Maliyyə Departamentinin**

**Müdir müavini:**

**Məmmədov Elçin Pünhan oğlu____________**

**Tarix: 19.02.2026**

# MÜNDƏRİCAT


XÜLASƏ....4

1. Xəbərdarlıq....4
2. Emitent haqqında məlumat....4
3. Qiymətli kağızlar haqqında məlumat....7
4. Risk faktorları....9
5. Təklif....9

I. İstiqrazların Emitenti barədə tələb olunan məlumat....11
6. Emitentin auditorları barədə məlumat....11
7. Seçilmiş maliyyə məlumatı....12
8. Emitent barədə məlumat....12
9. Emitentin biznesinin icmalı....13
10. Digər təşkilatlarda iştirak....15
11. Tendensiyalar barədə məlumat....15
12. Gəlir proqnozu....15
13. Emitentin idarəetmə və nəzarət orqanları....15
14. İdarə heyətinin işgüzar praktikası....16
15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər....16
16. Emitentin maliyyə məlumatları....17
17. Emitent haqqında əlavə məlumatlar....26

II. İstiqrazlar haqqında ümumi məlumat....27
18. Əsas məlumatlar....27
19. İstiqrazlar haqqında məlumat....28

# XÜLASƏ

## 1. Xəbərdarlıq.

1.1. Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir;

1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Baza Emissiya Prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.3. Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** “GL” Açıq Səhmdar Cəmiyyəti

2.2. **Emitentin qısaldılmış adı**: “GL” ASC

2.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi**: VÖEN 2003860631, 14.06.2016-ci il.

2.4. **Emitentin olduğu yer və emitentin qeydiyyatda olduğu ölkə**: Azərbaycan, Bakı şəhəri, AZ1010, Salatın Əsgərova küç, ev. 161.

2.5. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**
“GL” ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir.Təşkilat təminatlı kredit bazarında rəqabət aparır. Hazırki dövrdə təşkilatın fəaliyyətinə əsas təsir edən valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar “GL” ASC tərəfindən qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində Baza Emissiya prospekti hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlərin həcmi azdır və kredit portfelinin böyük həcmi milli valyutadan ibarətdir.

2.6. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Mövcud deyil.

2.7. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Emitentin gəlir proqnozu mövcud deyil.

2.8. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**
Emitentin son 3 audit edilmiş maliyyə hesabatlarına ilə əsasən mənfəət göstəriciləri artımla davam edir, bu isə gəlirliliyin qorunduğunu göstərir. Likvidlikdə dalğalanmalar var, lakin ümumilikdə öhdəliklərin yerinə yetirilməsi imkanını riskə atmır. Son 3 ilin göstəricilərinə əsasən, emitentin ümumi maliyyə vəziyyəti stabil və artan gəlirlilik tendensiyası ilə xarakterizə olunur. Xalis mənfəət ardıcıl olaraq artmaqdadır:
2022: 3 013 min AZN
2023: 2.875 min AZN (yüngül azalma)
2024: 3.034 min AZN
2025: 5.050 min AZN

Bu, göstəricilərə əsasən lombard fəaliyyətinin (zəmanətli kiçik məbləğli kreditlər) davamlı və gəlirli olduğunu göstərir.
Cəmi aktivlər 2024–2025-ci illər arasında 1.31 milyon manata qədər artmışdır
Cəmi kapital isə artım tendensiyası göstərir:
2022: 2.56 mln
2023: 2.34 mln
2024: 2.17 mln
2025: 3.47 mln
Kredit portfeli (əsas gəlir mənbəyi) 2024-cü ildə 46.27 mln manatdan 2025-ci ildə 50.83 mln manata yüksəlmişdir. Bu, müştəri bazasının genişləndiyini və kreditləşmənin artdığını göstərir. Pul vəsaitləri göstəricisində 2023-cü ildə kəskin azalma (854 min → 486 min) müşahidə olunsa da, 2024-cü ildə bu göstərici yenidən 839 min manata qədər bərpa olunmuşdur. Bu göstərici 2025-ci ildə 2.63 mln manata yüksəlmişdir.
Bu dəyişkənlik qısamüddətli likvidlik təzyiqləri yaratmış ola bilər, lakin hazırkı vəziyyətdə yenidən bərpa olunması təşkilatın likvidlik idarəetməsinin qənaətbəxş olduğunu göstərir. İnflyasiya, manatın dəyərinin dəyişməsi, və ya geosiyasi risklər, sektorun kiçik borc kreditlərinə əsaslanması bu cür təsirlərə qarşı nisbi dayanıqlılıq yaradır.

2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**
**Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

(Azərbaycan Manatı ilə)

| Göstəricilər | 2024 (audit edilmiş) | 2023 (audit edilmiş | 2022 (audit edilmiş) |
|---|---|---|---|
| Mənfəət/Zərər (vergidən əvvəl) | 3 910 868 | 3 649 209 | 3 807 252 |
| Mənfəət/Zərər ( xalis) | 3 034 975 | 2 875 842 | 3 013 355 |
| Cəmi öhdəliklər | 50 757 591 | 42 337 768 | 38 344 150 |
| Cəmi kapital | 2 167 238 | 2 335 142 | 2 258 656 |
| Cəmi aktivlər | 52 924 829 | 44 672 910 | 40 602 806 |
| Kredit portfeli | 46 271 740 | 39 523 776 | 34 303 617 |
| Pul vəsaitləri | 839 423 | 486 872 | 854 867 |

**2.9.1.** Maliyyə hesabatlarına baxdıqda görürük ki, "GL" ASC əvvəlki illərdə olduğu kimi 2025-ci ili də mənfəət ilə yekunlaşdırmışdır. İl üzrə cəmi mənfəət 5 050 086 manat olmuşdur ki, bu da son illərin maliyyə nəticələrinin ən yüksək göstəricisidir. Düzdür faiz xərcləri və inzibati xərclərin məbləği də artmışdır, lakin 2025-ci ilin mənfəətini təşkilatın fəaliyyətə başladığı dövrdən ən yüksək nəticə hesab etmək olar. "GL" ASC kredit portfelinin həcmini artırmaqda davam edir. Həmçinin də müştəri sayı dinamikasında artım görünür. Təşkilat 2025-ci il ərzində kredit portfelinin həcmini 4 561 922 manat artıraraq 50 833 662 manata çatdırmışdır. Gəlir xərc hesabatına nəzər salsaq portfelin həcminin artması ilə əlaqədar olaraq faiz gəlirləri, haqq və komissiya gəlirlərində artım müşahidə olunur. 2024 cü ilin ilk 6 (altı) ayını cari ilin 6 (altı) ayı ilə müqayisə etdikdə faiz gəlirləri 6.2%, məbləğlə 598 312 manat artmışdır. Haqq və komissiya gəlirləri üzrə daha böyük nisbətdə 50.4% artım olmuşdur. 2024-cü ilin sonunda cəmi kapital 2 167 238 manat təşkil edirdi. Cari ilin maliyyə hesabatlarından görmək olur ki, təşkilat bir ildə öz kapitalını artıraraq 3 474 324 manata çatdırmışdır. Səhm kapitalında isə sonuncu artım 2023-cü ildə olmuşdur, bu artımdan sonra nizamnamə kapitalının məbləği 254 635 manat təşkil edir.

## 2.10. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:

Hazırki dövrdə təşkilatın fəaliyyətinə əsas təsir edən valyuta riskləri və portfel keyfiyyəti kimi faktorlar "GL" ASC tərəfindən qənaətbəxş idarə olunur. Belə ki, təşkilatın portfelində emissiya prospekti hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlərin həcmi azdır və kredit portfelinin böyük həcmi milli valyutadan ibarətdir. Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas faktor - kredit portfelinin keyfiyyətinin qənaətbəxş olmasıdır. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| **Göstəricilər** | **31 dekabr 2025-ci il tarixində bitən il** | **31 dekabr 2024-cü il tarixində bitən il** | **31 dekabr 2023-cü il tarixində bitən il** |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 2,414,269 | 2,149,965 | 2,118,638 |
| PAR>30/Portfel (%) | 4.75 | 4.65 | 5.35 |

Onuda qeyd etmək lazımdır ki, Cəmiyyətin illər üzrə stabil fəaliyyəti aşağıda göstərilən maliyyələşmə mənbələri hesabına mümkün olmuşdur :

1) əhaliyə verilmiş kreditlərdən əldə edilmiş faiz gəlirləri ;
2) verilən kreditlər üzrə komissiya gəlirləri ;
3) ölkədə fəaliyyət göstərən müxtəlif kredit təşkilatlarından manat ilə cəlb edilmiş borc öhdəlikləri ;
4) Uzunmüddətli, müxtəlif faiz dərəcələri ilə Emissiya edilmiş və yerləşdirilmiş qiymətli kağızlar üzrə daxil olan pul vəsaitləri ;
   Qiymətli kağızlar üzrə emissiyaların həyata kecirilməsi ilə daha sərfəli şərtlərlə vəsait cəlb edib əhalının kredit tələbatını təmin etməklə bazarda öz mövqeyini qoruyub saxlamaq və artırmaq nəzərdə tutub.

| Göstəricilər | 31 dekabr 2025-ci il tarixində bitən il (audit edilməmiş) | 31 dekabr 2024-cü il tarixində bitən il (audit edilmiş) | 31 dekabr 2023-cü il tarixində bitən il (audit edilmiş) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul:** | | | |
| Əldə edilmiş faizlər | 23,922,532 | 18,930,799 | 15,988,207 |
| Əldə edilmiş haqq və komissiyalar | 1,240,168 | 202,158 | 305,230 |
| **Maliyyə fəaliyyətindən daxil olan pul:** | | | |
| Müddətli borc öhdəliklərindən daxilolmalar | 17,953,916 | 12,755,697 | 11,518,098 |
| Müddətli borc öhdəliklərinin qaytarılması | (13,420,706) | (10,561,084) | (11,239,369) |
| Buraxılmış qiymətli kağızlarda xalis artım/(azalma) | (155,000) | 4,485,000 | 3,843,990 |

2.11. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** "GL" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir.

2.12. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:**
"GL" ASC-nin nizamnamə kapitalının 100 % 1 (bir) fiziki şəxsə Quliyev Fərman Eldar oğluna məxsusdur. Cəmiyyətin Ali İdarəetmə orqanı onun Səhmdarlarının ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.

## 3. Qiymətli kağızlar haqqında məlumat

3.1. **İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

3.2. **İstiqrazların valyutası:** Azərbaycan manatı;

3.3. **Tədavül müddəti:** 7 (yeddi) il;

3.4. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

3.5. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən istiqrazın illik faizi həcmində istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.6. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazların 1-2-ci buraxılışları üzrə illik faiz dərəcəsi 15 (on beş) faiz təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər ayda bir dəfə (hər bir ayın 30 (otuz) gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. Ödəniş tarixi qeyri-iş gününə

təsadüf etdikdə, faiz ödənişi növbəti ilk iş günü ödənilir. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əsasında geri satın alına bilər.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazların 1-2-ci buraxılışları üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 (otuz) gün.

3.9. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmişdir.

3.10. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya Prospektinin müvafiq buraxılışına dair Yekun Şərtlərinin dövlət qeydiyyatına alınmasından sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların "Bakı Fond Birjası" QSC-nin listinqinə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına na əsasən həyata keçirilir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1078, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: +99412 498 98 20

*BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli* kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir

3.11. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların mülkiyyətçisinin təmsilçisi mövcud deyil.

## 4. Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**
Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:**
Emissiyanın məqsədi cəmiyyətin borc öhdəliklərinin vaxtında və tam şəkildə yerinə yetirilməsini təmin etməklə maliyyə vəziyyətinin möhkəmləndirilməsidir. Bu, cəmiyyətin maliyyə dayanıqlılığını artırmaqla yanaşı, onun fəaliyyətinin səmərəli və davamlı şəkildə həyata keçirilməsinə şərait yaradacaqdır.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. İnvestorlar hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitlərini emitent tərəfindən "Azər Türk Bank" ASC-də açılmış müvəqqəti cari hesaba köçürməlidirlər. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (https://sizinlombard.az/) açıqlanır.

## 5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:

***"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti***

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında birqiymətli hərrac vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza Emissiya prospekti təsdiq edilib, istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı fond birjası" QSC-də "Qiymətli Kağızların Ticarətə Qəbulu, Listinqə Alınması, Listinqdə Saxlanılması və Delistinqi" qaydalarına əsasən həyata keçirilir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.

Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

qiymətli kağızların saxlanması və uçotunun aparılması;

qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 17.1-ci maddəsində göstərilmiş digər vəzifələr.

***Anderrayter***

"İNVEST-AZ İnvestisiya Şirkəti" QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş 087986 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada

iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**5.4.1. Vergilər.** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlbolunacaqdır.

**5.4.2. Xərclər:** Əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;

investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;

- istiqraz alıcısının depo hesabı olmadığı təqdirdə "depo" hesab açılması üçün 20 manat (bu məbləğin 5 manatı MDM-in komissiyası, digər 15 manat isə investisiya şirkətinin komissiyası təşkil edir);
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).

## İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 6. Emitentin auditorları barədə məlumat

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2024 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |
| 2023 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |
| 2022 | PRIME AUDIT TAX CONSULTING | Xocalı prospekti 37, Dəmirçi Plaza 16-cı mərtəbə | Mövcud deyil |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:**

Son üç maliyyə ili ərzində emitentin auditorlarının dəyişdirilməsi olmamışdır.

## 7. Seçilmiş maliyyə məlumatı:

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

*(Azərbaycan Manatı ilə)*

| Göstəricilər | 2024 (audit edilmiş) | 2023 (audit edilmiş) | 2022 (audit edilmiş) |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 3 910 868 | 3 649 209 | 3 807 252 |
| **Mənfəət/Zərər (xalis)** | 3 034 975 | 2 875 842 | 3 013 355 |
| **Cəmi öhdəliklər** | 50 757 591 | 42 337 768 | 38 344 150 |
| **Cəmi kapital** | 2 167 238 | 2 335 142 | 2 258 656 |
| **Cəmi aktivlər** | 52 924 829 | 44 672 910 | 40 602 806 |
| **Kredit portfeli** | 46 271 740 | 39 523 776 | 34 303 617 |
| **Pul vəsaitləri** | 839 423 | 486 872 | 854 867 |

## 8. Emitent barədə məlumat

8.1. **Emitentin tam adı, təşkilatı-hüquqi forması:** "GL" Açıq Səhmdar Cəmiyyəti

8.2. **Emitentin qısaldılmış adı:** "GL" ASC;

8.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi:** VÖEN-2003860631, 14.06.2016-cı il.

8.4. **Emitentin olduğu yer və emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan, Bakı şəhəri, AZ1010, Nəsimi r-nu, Salatın Əsgərova küç., ev.161.

8.5. **Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Cəmiyyət 17.01.2023-cü il tarixdə təşkilati-hüquqi forması dəyişdirilərək Qapalı Səhmdar Cəmiyyətindən Açıq Səhmdar Cəmiyyətinə çevrilmişdir.

8.6. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**
Hüquqi ünvanı: Azərbaycan, Bakı şəhəri, AZ1010, Salatın Əsgərova küç, ev.161
Faktiki ünvanı: Azərbaycan, Bakı şəhəri, AZ1010, Salatın Əsgərova küç, ev.161
Telefon: (+994 12) 447 10 00, (+994 50) 291 10 00
İnternet səhifəsi: https://sizinlombard.az/
Elektron poçt ünvanı: info@glmmcsizinlombard.az

**8.7. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən investisiya edilməmişdir.

**8.8. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Təsdiqlənmiş investisiya layihələri mövcud deyil.

**8.9. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə Qapalı Səhmdar Cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "Fond birjası fəaliyyəti"–ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1078, City Point Biznes Mərkəzi, Cəlil Məmmədquluzadə küç, 102A, Bakı, Azərbaycan

Elektron poçt ünvanı: info@bfb.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

Tel: +99412 498 98 20

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

**9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətinin təsviri:**

"GL" ASC daşınar əşyaların girov qoyulması müqabilində qısamüddətli lombard kreditlərin verilməsini həyata keçirən və daşınar əşyaları saxlamaya qəbul edən kommersiya hüquqi şəxsdir. Bu fəaliyyət ilə əlaqədar olaraq, 2023-cü ildə isə kredit sayı 34 250 olaraq 77 461 347 manat, 2024-cü ildə isə kredit sayı 39 882 olaraq 96 660 513 manat, 2025-ci ildə isə 42 283 olaraq 113 175 013 manat həcmində kredit vermişdir .

Bundan əlavə, emitent kimi qiymətli kağızların emissiyasını həyata keçirən kommersiya hüquqi şəxsdir. 2025-ci il ərzində kütləvi təklif üsulu ilə Bakı Fond Birjasından 6 000 000 manat həcmində istiqraz yerləşdirmişdir.

**9.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Təqdim olunmuş yeni məhsullar və xidmətlər mövcud deyil.

**9.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

Emitentin rəqabət apardığı əsas bazarların təsviri;

a) **Lombardlar** əsasən qısamüddətli, kiçik məbləğli kreditləri fiziki şəxslərə təqdim edir. Kreditlər adətən fiziki girov (qızıl, məişət texnikası, elektronika və s.) əsasında təmin olunur. Bu fəaliyyət növünün əsas üstünlükləri:

Yüksək operativlik və çeviklik (banklarla müqayisədə daha az sənəd tələbi);

Kredit tarixçəsinin önəmsizliyi (müştərinin kredit tarixçəsi yox, girov əsas götürülür);

Qısa müddətli likvidlik imkanı təmin edən xidmət;

Bu üstünlüklər lombardları, xüsusilə bank xidmətlərinə çıxışı məhdud olan əhali qrupları üçün cəlbedici edir. Azərbaycanda lombard sektorunda rəqabət əsasən aşağıdakı oyunçular arasında formalaşır:

**b) Klassik lombardlar** (fərdi sahibkarlar və MMC-lər formasında)

Paytaxt və bölgələrdə geniş fəaliyyət göstərirlər.

Rəsmi qeydiyyatda olan, lakin çox zaman şəffaflıq və audit hesabatı təqdim etməyən qurumlardır.

Rəqabətdə əsas üstünlükləri – yüksək faiz, lakin çevik şərtlər və daha az formalizm.

**c) Lisenziyalı qeyri-bank kredit təşkilatları (QBKT-lər)**

Mərkəzi Bankdan lisenziya almış, nizamnamə kapitalı və audit tələblərinə cavab verən qurumlardır.

Girovlu və girovsuz kreditlər təklif etsələr də, lombard seqmentində də iştirak edirlər.

"GL" ASC bu qurumlarla rəqabət aparmaqla şəffaflıq və etibarlılıq baxımından üstünlük qazanmışdır.

**d) Banklar və mikro-maliyyə institutları**

Qızıl və ya digər əşyalarla təmin edilmiş qısa müddətli istehlak kreditləri təqdim edən bəzi banklar rəqabət yarada bilər.

Lakin bu sektor müvafiq olaraq daha çox sənəd və vaxt tələb etdiyi üçün lombardlar üçün birbaşa təhlükə sayılmır.

**Bazarın Xüsusiyyətləri və Tendensiyalar**

- **Yüksək likvidlik tələbi olan müştəri seqmenti** (işsizlər, əmək müqaviləsi olmayan şəxslər, təcili pul ehtiyacı olanlar) – əsas hədəf auditoriyadır.
- **Rəqəmsallaşma səviyyəsi aşağıdır**, lakin bu həm rəqabət, həm də fürsət yaradır (online qiymətləndirmə, rəqəmsal müştəri xidmətləri).
- **Tənzimləyici risklər artmaqdadır** – Mərkəzi Bankın sektora nəzarəti gücləndirməsi səbəbindən daha sərt şəffaflıq və kapital tələbləri tətbiq edilə bilər.
- **İqtisadi qeyri-sabitliklər** (inflyasiya, manatın dəyəri və s.) – girov qiymətləndirilməsinə və müştəri ödəmə qabiliyyətinə təsir göstərir.

**Emitentin Rəqabət Üstünlükləri və Riskləri**

**Üstünlüklər:**

- Audit olunmuş maliyyə hesabatları ilə şəffaflıq nümayiş etdirir.
- Kredit portfelinin davamlı artımı – bazar payını qoruduğunu göstərir.
- Yüksək çeviklik və operativ xidmət – fərdi müştərilər üçün cəlbedici seçim.

**Risklər:**

- Sürətlə artan qeyri-rəsmi lombard subyektləri ilə qiymət və faiz rəqabəti.
- Girov qiymətləndirilməsi və risklərin sığortalanmaması – aktivlərin dəyər itirmə riski.
- Borc əsasında böyümə – maliyyə dayanıqlığını zəiflədə bilər (xüsusilə faiz dərəcələri artdıqda).

**9.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:** Emitentin rəqabət mövqeyinə dair bəyanatı mövcud deyil.

## 10. Digər təşkilatlarda iştirak

**10.1. Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** Emitentin digər hüquqi şəxslərdə hər hansı iştirakı mövcud deyil.

**10.2. Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 11. Tendensiyalar barədə məlumat

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətində Baza Emissiya prospektinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitent cari maliyyə ilində mənfəətliyini artırmaq üçün və risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

**12. Gəlir proqnozu:** Emitentin gəlir proqnozu mövcud deyil.

## 13. Emitentin idarəetmə və nəzarət orqanları:

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Səhmdarların Ümumi yığıncağı barədə məlumat:** Cəmiyyətin Ali İdarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

**Emitentin Müşahidə Şurası barədə məlumat:** Emitentin nizamnaməsinə uyğun olaraq Emitentin Müşahidə Şurası mövcud deyil.

**Emitentin İdarə Heyəti barədə məlumat:** Təkbaşına icra orqanı – Direktor

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Camal Əhmədov Kamal oğlu | Direktor | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır. fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir; və s. |

**13.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikası

Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6- cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı təşkilatın Müşahidə Şurasına, o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 14. İdarə heyətinin işgüzar praktikası

14.1. **Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Cəmiyyətin audit və mükafatlandırma komitələri təyin edilməmişdir.

14.2. **Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər:

15.1. **Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Quliyev Fərman Eldar | Azərbaycan Respublikası | 127 (bir yüz iyirmi yeddi) | 100% |

15.2. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:**
Mühüm iştirak payının sahibi Emitentə nəzarət emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin Ali İdarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

15.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

**16.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Maliyyə hesabatları beynəlxalq mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanmışdır.

### 16.1.1. Maliyyə vəziyyəti haqqında hesabatı:

**"GL" ASC 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMİŞ MALİYYƏ ƏZİYYƏTİ HAQQINDA HESABAT***(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 839,423 | 486,872 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 7 | - | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 46,271,740 | 39,523,776 |
| Əmlak və avadanlıqlar | 9 | 725,218 | 617,941 |
| Qeyri-maddi aktivlər | | 2,250 | 1,269 |
| Mənfəət vergisi aktivi | | 691,599 | 86,556 |
| Digər aktivlər | 10 | 3,523,644 | 3,282,894 |
| Vəsaitin istifadə hüququ | 11 | 505,479 | 482,244 |
| Təxirə salınmış vergi aktivi | 20 | 365,476 | 191,358 |
| **Cəmi aktivlər** | | **52,924,829** | **44,672,910** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 12 | 20,660,515 | 18,396,626 |
| Buraxılmış qiymətli kağızlar | 13 | 26,180,726 | 21,654,803 |
| Mənfəət vergisi öhdəliyi | | 1,409,464 | 359,452 |
| İcarə öhdəlikləri | 11 | 517,854 | 482,168 |
| Digər öhdəliklər | 14 | 1,989,032 | 1,444,719 |
| **Cəmi öhdəliklər** | | **50,757,591** | **42,337,768** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 15 | 254,635 | 254,635 |
| Bölüşdürülməmiş mənfəət | | 1,912,603 | 2,080,507 |
| **Cəmi kapital** | | **2,167,238** | **2,335,142** |
| **Cəmi kapital və öhdəliklər** | | **52,924,829** | **44,672,910** |

## 16.1.2. Mənfəət-Zərər haqqında hesabat

**"GL" ASC**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-cü il tarixində bitən il |
|---|---|---|---|
| Faiz gəlirləri | 16 | 19,485,632 | 16,297,893 |
| Faiz xərcləri | 16 | (5,452,064) | (4,765,989) |
| **Xalis faiz gəlirləri** | | **14,033,568** | **11,531,904** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | 8 | (169,627) | (298,030) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **13,863,941** | **11,233,874** |
| Haqq və komissiya gəlirləri | 17 | 202,158 | 305,230 |
| Haqq və komissiya xərcləri | 18 | (183,890) | (148,414) |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər | | (27) | (11) |
| Digər gəlirlər | | 125 | 22,573 |
| Ümumi və inzibati xərclər | 19 | (9,971,439) | (7,764,043) |
| **Vergidən əvvəlki mənfəət** | | **3,910,868** | **3,649,209** |
| Mənfəət vergisi xərci | 20 | (875,893) | (773,367) |
| **İl üzrə cəmi mənfəət və sair məcmu gəlirlər** | | **3,034,975** | **2,875,842** |

## 16.1.3. Kapitalda dəyişiklik haqqında hesabat

**"GL" ASC**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMİŞ**
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi capital |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **4,010** | **2,254,646** | **2,258,656** |
| Ödənilmiş dividendlər | - | (3,105,000) | **(3,105,000)** |
| İl üzrə mənfəət və sair məcmu gəlir | - | 3,034,975 | **3,034,975** |
| Ötən illərin mənfəət vergisi xərci | - | (97,880) | **(97,880)** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **254,635** | **1,912,603** | **2,167,238** |
| Ödənilmiş dividendlər | - | (3,743,000) | (3,743,000) |
| İl üzrə mənfəət və sair məcmu gəlir | - | 3,034,975 | **3,034,975** |
| Ötən illərin mənfəət vergisi xərci | - | (97,880) | **(97,880)** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **254,635** | **1,912,603** | **2,167,238** |

## 16.1.4. Pul vəsaitinin hərəkəti haqqında hesabat

**"GL" ASC**
**31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-cü il tarixində bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul:** | | | |
| Əldə edilmiş faizlər | | 18,930,799 | 15,988,207 |
| Ödənilmiş faizlər | | (5,393,059) | (4,734,654) |
| Əldə edilmiş haqq və komissiyalar | | 202,158 | 305,230 |
| Ödənilmiş haqq və komissiyalar | | (183,890) | (148,414) |
| Ödənilmiş işçi xərcləri | | (6,476,409) | (4,973,438) |
| Ödənilmiş icarə xərcləri | | (1,139,974) | (904,662) |
| Ödənilmiş reklam xərcləri | | (331,192) | (437,008) |
| Ödənilmiş gəlir vergisi xərci | | (702,920) | (1,616,354) |
| Ödənilmiş administrativ və digər əməliyyat xərcləri | | (1,766,085) | (1,577,587) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **3,139,428** | **1,901,318** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (6,386,696) | (4,092,484) |
| Digər aktivlər | | (263,985) | 341,132 |
| Digər öhdəliklər | | 580,000 | 619,554 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(2,931,253)** | **(1,230,482)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əsas vəsaitlərin alışı | 9 | (290,808) | (210,244) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(290,808)** | **(210,244)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müddətli borc öhdəliklərindən daxilolmalar | | 12,755,697 | 11,518,098 |
| Müddətli borc öhdəliklərinin qaytarılması | | (10,561,084) | (11,239,369) |
| Buraxılmış qiymətli kağızlarda xalis artım/(azalma) | 13 | 4,485,000 | 3,844,000 |
| Ödənilmiş dividend | | (3,105,000) | (3,050,000) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **3,574,613** | **1,072,730** |
| ***Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri*** | | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | | **352,551** | **(367,995)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **486,872** | **854,867** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **839,423** | **486,872** |

**16.2. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):**Tərtib edilmir.

**16.3. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Son bir il ərzində Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən hüquqi proseslər mövcud deyildir.

**16.4. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatlari:** Emitent bir ildən artıq müddətdə fəaliyyət göstərir.

**16.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Emitentin son audit edilmiş maliyyə hesabatları tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatları audit olunmamışdır və dərc edilməmişdir.

**16.6. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Aralıq maliyyə hesabatları audit edilməmişdir və Baza Emissiya prospektinə əlavə olunur.

## 16.6.1. GL" ASC 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMƏMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 2 630 633 | 839 423 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 7 | - | - |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 50 833 662 | 46 271 740 |
| Əmlak və avadanlıqlar | 9 | 589 845 | 725 218 |
| Qeyri-maddi aktivlər | | 4 075 | 2 250 |
| Mənfəət vergisi aktivi | | 1 229 448 | 691 599 |
| Digər aktivlər | 10 | 4 045 527 | 3 523 644 |
| Vəsaitin istifadə hüququ | 11 | 1 297 406 | 505 479 |
| Təxirə salınmış vergi aktivi | | 432 935 | 365 476 |
| **Cəmi aktivlər** | | **61 063 531** | **52 924 829** |
| | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 12 | 25 249 183 | 20 660 515 |
| Buraxılmış qiymətli kağızlar | 13 | 25 992 637 | 26 180 726 |
| Mənfəət vergisi öhdəliyi | | 1 809 452 | 1 409 464 |
| İcarə öhdəlikləri | 11 | 1 311 581 | 517 854 |
| Digər öhdəliklər | 14 | 3 226 354 | 1 989 032 |
| **Cəmi öhdəliklər** | | **57 589 207** | **50 757 591** |
| | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 15 | 254 635 | 254 635 |
| Bölüşdürülməmiş mənfəət | | 3 219 689 | 1 912 603 |
| **Cəmi kapital** | | **3 474 324** | **2 167 238** |
| | | | |
| **Cəmi kapital və öhdəliklər** | | **61 063 531** | **52 924 829** |

## 16.6.2. "GL" ASC 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMƏMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | | 31 Dekabr 2025-ci il tarixində bitən il | 31 Dekabr 2024-cü il tarixində bitən il |
|---|---|---|---|
| Faiz gəlirləri | 16 | 24 349 142 | 19 485 632 |
| Faiz xərcləri | 16 | (6 682 571) | (5 452 064) |
| **Xalis faiz gəlirləri** | | **17 666 571** | **14 033 568** |
| Faiz yaradan aktivlərin dəyərsizləşməsi üzrə ehtiyat | 8 | (304 205) | (169 627) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **17 362 366** | **13 863 941** |
| Haqq və komissiya gəlirləri | 17 | 1 240 168 | 202 158 |
| Haqq və komissiya xərcləri | 18 | (309 521) | (183 890) |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər | | (9) | (27) |
| Digər gəlirlər | | 1 690 | 125 |
| Ümumi və inzibati xərclər | 19 | (11 877 897) | (9 971 439) |
| **Vergidən əvvəlki mənfəət** | | **6 416 797** | **3 910 868** |
| Mənfəət vergisi xərci | 20 | (1 366 711) | (875 893) |
| **İl üzrə cəmi mənfəət və sair məcmu gəlirlər** | | **5 050 086** | **3 034 975** |

## 16.6.3. "GL" ASC 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMƏMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Nizamnamə kapitalı* | *Bölüşdürülməmiş mənfəət* | *Cəmi capital* |
|---|---|---|---|
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **254 635** | **2 080 508** | **2 335 142** |
| Ödənilmiş dividendlər | - | (3 105 000) | **(3 105 000)** |
| İl üzrə mənfəət və sair məcmu gəlir | - | 3 034 975 | **3 034 975** |
| Ötən illərin mənfəət vergisi xərci | - | (97 880) | **(97 880)** |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **254 635** | **1 912 603** | **2 167 238** |
| Ödənilmiş dividendlər | - | (3 743 000) | **(3 743 000)** |
| İl üzrə mənfəət və sair məcmu gəlir | - | 5 050 086 | **5 050 086** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **254 635** | **3 219 689** | **3 474 324** |

## 16.6.4. "GL" ASC 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ AUDİT EDİLMƏMİŞ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | | 31 dekabr 2025-ci il tarixində bitən il | 31 dekabr 2024-cü il tarixində bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul:** | | | |
| Əldə edilmiş faizlər | | 23 922 532 | 18 930 799 |
| Ödənilmiş faizlər | | (6 661 105) | (5 393 059) |
| Əldə edilmiş haqq və komissiyalar | | 1 240 168 | 202 158 |
| Ödənilmiş haqq və komissiyalar | | (309 521) | (183 890) |
| Ödənilmiş işçi xərcləri | | (7 452 335) | (6 476 409) |
| Ödənilmiş icarə xərcləri | | (1 416 539) | (1 139 974) |
| Ödənilmiş reklam xərcləri | | (282 376) | (331 192) |
| Ödənilmiş gəlir vergisi xərci | | (1 580 121) | (702 920) |
| Ödənilmiş administrativ və digər əməliyyat xərcləri | | (2 585 264) | (1 766 085) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **4 875 439** | **3 139 428** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (4 383 123) | (6 386 696) |
| Digər aktivlər | | (1 313 810) | (263 985) |
| Digər öhdəliklər | | 2 031 049 | 580 000 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **1 209 555** | **(2 931 253)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əsas vəsaitlərin alışı | 9 | (53 555) | (290 808) |
| İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri | | (53 555) | (290 808) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Müddətli borc öhdəliklərindən daxilolmalar | | 17 953 916 | 12 755 697 |
| Müddətli borc öhdəliklərinin qaytarılması | | (13 420 706) | (10 561 084) |
| Buraxılmış qiymətli kağızlarda xalis artım/(azalma) | 13 | (155 000) | 4 485 000 |
| Ödənilmiş dividend | | (3 743 000) | (3 105 000) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **635 210** | **3 574 613** |
| ***Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri*** | | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | | **1 791 210** | **352 551** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **839 423** | **486 872** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **2 630 633** | **839 423** |

**16.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər mövcud deyil.

**16.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Kənar audit hesabatına əsasən, "GL" ASC əvvəlki illərlə müqaisədə 2025-ci ildə daha cox mənfəət əldə etmişdir və bazarda öz mövqeyini qoruyub saxlamışdır. Təşkilat son bir ildə yeni filial açmasa da kredit portfelinin həcmini 4 561 922 manat artıraraq 50 833 662 manata çatdırmışdır.

Onuda qeyd etmək lazımdlr ki, 2025-ci ilin sonuna təşkilat 23 922 532 manat faiz gəliri əldə etmişdir və bu 2024-cü ilin müvafiq dövrü ilə muqayisədə faiz gəlirləri üzrə 4 991 733 manat artım deməkdir.

## 17. Emitent haqqında əlavə məlumatlar

**17.2. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu: Nizamnamə kapitalının məbləği:** 254 635 (iki yüz əlli dörd min altı yüz otuz beş) manat həcmindədir.

- **Nizamnamə kapitalını təşkil edən səhmlərin sayı:** 127 (bir yüz iyirmi yeddi) ədəd adi, adlı, sənədsiz səhmdən ibarətdir.
- **Nizamnamə kapitalını təşkil edən səhmlərin hər birinin nominal dəyəri:** Səhmlərin hər birinin nominal dəyəri 2005 (iki min beş) manat.
- **Nizamnamə kapitalında imtiyazlı səhmlər barədə məlumat:** Emitent tərəfindən imtiyazlı səhmlər buraxılmamışdır.
- **Nizamnamə kapitalını təşkil edən səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Emitentin nizmnamə kapitalını təşkil edən adi, adlı, sənədsiz səhm sahibləri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə adi səhm sahibləri üçün müəyyən edilmiş bütün hüquqlara malikdirlər.

**17.3. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 16.12.2024-ci il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**17.4. Fəaliyyət və məqsədlərin təsviri:** "GL" Açıq Səhmdar Cəmiyyəti öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və Nizamnaməsi əsasında həyata keçirir və əsas məqsədi mənfəət götürməkdən ibarət olan kommersiya təşkilatıdır. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

**17.5. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:**

**Səhmdarların ümumi yığıncağının səlahiyyətləri**

- Cəmiyyətin Nizamnaməsinə əlavə və dəyişikliklər edilməsi, onun nizamnamə kapitalının miqdarının dəyişdirilməsi;

- Cəmiyyətin nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi;
- Cəmiyyətin növbədənkənar ümumi yığıncaqlarının çağırılması hallarının və qaydasının müəyyən edilməsi;
- Cəmiyyətin illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətin və zərərin bölüşdürülməsi;
- Cəmiyyətin yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarın qəbul edilməsi;
- Cəmiyyətin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, o cümlədən Direktorun təyin edilməsi və geri çağırılması;,
- Cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydasının müəyyən edilməsi.
- Cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqdin bağlanılması barədə qərarın qəbul edilməsi.
- Aidiyyəti şəxslə hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı qərarın qəbul edilməsi.

**Direktorun funksiyaları -**
**Direktorun səlahiyyətlərinə aşağıdakılar aiddir**:

- Direktor qanunvericilikdə Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

17.6. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

17.7. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmsil edən təşkilat mövcud deyil.

## 18. İstiqrazlar haqqında ümumi məlumat

**Əsas məlumatlar:**

18.2. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

18.3. **Təklif olunan qiymətli kağızların reytinqi və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif olunan istiqrazların reytinqi mövcud deyil.

18.4. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmamışdır.

18.5. **İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il

müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

**18.6. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:**
Emissiya ediləcək istiqrazlar həm fiziki həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

## 19. İstiqrazlar haqqında məlumat

**19.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**19.3. Təklif edilən istiqrazların sayı və nominal dəyəri:** Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 50 000 (əlli min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

**19.4. İstiqrazların valyutası:** Azərbaycan manatı;

**19.5. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:
- İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən istiqrazın illik faizi həcmində istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar. Məhdudiyyətlər nəzərdə tutulmayıb.

**19.6. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.7. İstiqrazlar üzrə ödənilməli faizlər:** illik 15(on beş) faiz;

**19.8. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**19.9. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları**: İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır. Hal-hazırda bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri müşaiyət olunmur.

**19.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Emissiya edilən istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

**19.11. İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddəti ərzində istiqrazlar emitent ilə investor arasında qarşılıqlı razılıq əsasında geri satın alına bilər.

**19.12. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazların 1-2 -ci buraxılışları üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF=(N*D*G/360)/100
Burada,
TF- Bir istiqraz üzrə toplanmış faizlər;
N- Bir İstiqrazın nominal dəyəri - 100 (bir yüz) manat ;
D- İstiqrazların illik gəlirlik dərəcəsi -15 (on beş);
G- istiqrazların faiz ödəniş dövrünün müddəti - 30 (otuz) gün.

Hər bir istiqraz üzrə, hər kupon ödənişində faiz məbləği: 1,25 (bir manat iyirmi beş qəpik) manat təşkil edəcəkdir

**19.13. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** İnvestorları təmsil edən təşkilat mövcud deyil.